

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 182 (23.824)

2 oktyabr 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## N.E.Cahidzadənin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naim Etibar oğlu Cahidzadə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 oktyabr 2021-ci il*

## Babək rayonunun Araz kəndində yeni sosial obyektlər istifadəyə verilib

Bu gün Naxçıvan Muxtar Respublikası yeni inkişaf dövrünü yaşayır. Ümummilli lider Heydər Əliyevin quruculuq xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, sosial-iqtisadi inkişaf təmin edilmiş, aparılan quruculuq işləri muxtar respublikanın simasını dəyişmişdir. Artıq kompleks abadlaşan kəndlər Naxçıvanın müasir inkişaf göstəricisinə çevrilmişdir. İnsan amilinə xidmət edən bu tədbirlərin davamı olaraq Babək rayonunun Araz kəndində də geniş quruculuq işləri aparılmış, sakinlərin rahat yaşayışına xidmət edən müasir sosial obyektlər inşa olunmuşdur.

## Araz kənd məktəbində hərtərəfli tədris şəraiti yaradılıb





Oktyabrın 1-də – Müəllimlər Günü ərəfəsində Araz kənd ümumi orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 88 şagird yerlik məktəbdə 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, şahmat sinfi, kompüter, psixoloq və müəllimlər otaqları, STEAM kabinəsi, kitabxana və idman zalı yerləşir. Kitabxana fondunda 1840 kitab vardır. STEAM kabinəsində 1 elektron lövhə, 2 kompüter, 3D printer quraşdırılmış, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları ilə təchiz edilmişdir. Şagirdlərin hazırladıqları "Təmassız tullantı qutusu" və "Avtomatik suvarma sistemi" layihələri təqdim edilmişdir.



Müəllim Mirvari Qurbanova demişdir: "Məktəbimizdə STEAM təlim metodunun tətbiqi, STEAM kabinəsinin yaradılması müəllimlərə müasir metodlarla işləməyi öyrətməklə yanaşı, şagirdlərin yeni texnologiyaları mənimsəməsinə, tədrisdə yeni təlim üsullarının tətbiqinə və inkişafına geniş imkanlar yaradır. Bu, layihə əsaslı öyrənmə və fənlərarası əlaqə yaradan bir təhsil sistemidir. STEAM təhsil metodunda ənənəvi yanaşmadan fərqli olaraq, uşaqlar praktik üsullardan istifadə edərək öyrənirlər. Bu vasitə ilə daha yaxşı qavrayır, robot yaratmaqla, kodlaşdırmaqla və yaxud hər hansı layihəni tətbiq etməklə riyaziyyat, fizika, kimya və biologiya elmlərinin dərinliklərini dərk edirlər. Bu yanaşma ilə yetişən şagirdlər gələcəkdə yeniliklər edə bilir, düşünən, yaradan və sağlam təfəkkürlü bir nəsil kimi formalaşır".

Məktəbdə internetə çıxışı olan 12 kompüter və 3 elektron lövhə quraşdırılmışdır. Ali Məclisin Sədri elektron lövhəli sinifdə Ədəbiyyat Muzeyi ilə 200-dən artıq təhsil müəssisəsi arasında "Nizami Gəncəvi – 880" mövzusunda keçirilən interaktiv dərsi izləmişdir.

Məktəbin kimya-biologiya və fizika laboratoriyalarında ən müasir avadanlıqlar quraşdırılmışdır. Şagirdlər keçirilən təcrübələrdə iştirak etməklə bu sahədə biliklərini daha da möhkəmləndirəcəklər.

Gənc nəslin sağlamlığının və fiziki inkişafının təmin edilməsində, vətənin müdafiəsinə hər an hazır olan mərd və cəsur vətəndaş kimi yetişməsində idman dərslərinin mühüm rolu vardır. Məktəbin lazımi əyani vasitələrlə təchiz olunan geniş idman zalı və şahmat sinfi gənclərin hərtərəfli inkişafını təmin edəcəkdir. Şahmat otağına baxış zamanı bildirilmişdir ki, ümumtəhsil məktəblərinə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən nəşr olunmuş "Həvəskardan ustaya qədər...", "Şahmat incilərini tapmaq" və "Naxçıvan şahmat diyarı" adlı yeni dərs vəsaitləri verilmişdir.



Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada 200-dən artıq məktəbin tikintisi, müasir avadanlıqlarla təminatı, ümumilikdə, infrastrukturun yeniləşdirilməsi nəticəsində 50 mindən çox şagirdin təhsil şəraiti yaxşılaşdırılmışdır. Hazırda Babək rayonunda Sirab və Göynük məktəblərində tikinti və yenidənqurma işləri həyata keçirilir. Araz kənd ümumi orta məktəbinin də maddi-tədris bazası yaxşılaşdırılmış, tədrisin yüksək səviyyədə təşkili üçün müasir şərait yaradılmışdır. Ali Məclis Sədrinin müvafiq Sərəncamları ilə keçirilən nümunəvi dərslər, məktəb-muzey, məktəb-akademiya əlaqələri şagirdlərin biliklərinin artırılması ilə yanaşı, vətənpərvərlik və milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Bu günə qədər 53 təhsil müəssisəsində STEAM kabinələri yaradılmış, dərslik və tədris proqramları nəşr edilmiş, 200-dən çox müəllim STEAM təlimlərinə cəlb olunmuşdur. Muxtar respublikada müəllim əməyinə verilən dəyərdən

*Ardı 2-ci səhifədə*



danışan təhsil naziri bildirmişdir ki, son üç ildə 726 gənc kadr ümumtəhsil məktəblərində müəllim və müxtəlif vəzifələrə təyin olunmuş, 1200-dən çox müəllim müxtəlif ixtisasartırma kurslarına, təlimlərə cəlb olunmuş, 505 müəllim şahmat sertifikatı ilə təmin edilmiş, müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə sertifikasiyası aparılmışdır. Müəllim əməyinə verilən qiymətin nəticəsidir ki, bu günə qədər muxtar respublikanın təhsil müəssisələrində çalışan 400-dən çox müəllim fəxri ad və medalla təltif edilmiş, 24 ümumtəhsil məktəbi "Ən yaxşı məktəb", 40 müəllim isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşdur. Rəhman Məmmədov göstərilən hərtərəfli diqqət və qayğıya görə muxtar respublikanın təhsil işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Məktəbin gənc müəllimi Nazlı Nəcəfova minnətdarlıq edərək demişdir: "Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində Araz kəndində kompleks quruculuq və abadlıq işləri aparılmışdır. Bu gün Araz kənd ümumi orta məktəbi yeni binada fəaliyyətə başlayır. Beynəlxalq Müəllimlər Günü ərəfəsində müəllimlərimiz üçün bundan böyük hədiyyə ola bilməz. Muxtar respublikada gənclərin yaxşı təhsil alması ilə yanaşı, onların işlə təminatı da diqqətdə saxlanılır. Yaradılan şəraitin nəticəsidir ki, orta təhsilimi 580 balla başa vuraraq Ali Məclis Sədrinin mükafatına layiq görülmüş, Naxçıvan Dövlət Universitetinin Tarix ixtisasını bitirmişəm. Müəllimlərin işə qəbulu ilə bağlı keçirilən müsabiqədə yüksək nəticə göstərərək Araz kənd ümumi orta məktəbində tarix müəllimi kimi çalışıram. Mənimlə bərabər 3 gənc kadr da müsabiqədən yüksək nəticə əldə edərək bu məktəbdə fəaliyyətə başlamışdır. Bu cür möhtəşəm, müasir avadanlıqlarla təchiz olunmuş məktəbdə işləmək böyük arzumuz idi. Arzumuz reallığa çevrildi".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Araz kənd ümumi orta məktəbinin kollektivini yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Bu gün Araz kəndinin həyatında əlamətdar gündür. Çünki kənd yenidən qurulub. Yeni məktəb binası müasir tədrisin tələblərinə tam cavab verir. Bu təhsil ocağında yaradılan təminat mərkəzlərdəki məktəblər ilə eyni səviyyədədir. Məktəb ümumxalq işidir. Ona görə ki, məktəblərdə ölkənin gələcəyi hazırlanır. Dövlət lazımi şəraiti yaradır. Kollektiv bu imkanlardan səmərəli istifadə etməli, müəllimlər tələbkar, şagirdlər çalışqan olmalı, məktəblə ailə arasında sıx əlaqə yaradılmalıdır. Bu sahədə görülən işlərin nəticəsidir ki, 2020-2021-ci tədris ilində ali və orta ixtisas məktəblərinə qəbulun nəticələrinə görə muxtar respublika liderdir. Yəni 72 faizdən artıq gənc ali və orta ixtisas məktəblərinin tələbəsi adını qazanıb.



Ali Məclisin Sədri bu münasibətlə muxtar respublika müəllimlərinə təşəkkürünü bildirərək demişdir: Məktəblərdə yaradılan müasir tədris şəraiti gənclərin günün tələbləri səviyyəsində yetişməsinə imkan verir. XXI əsr yeni texnologiyalar əsridir. Ona görə də məktəblərdə lazımi şərait yaradılmalı, tədris yeni texnologiyalar əsasında qurulmalıdır. Araz kənd ümumi orta məktəbində də bu amil nəzərə alınmış, kompüter sinfi, laboratoriyalar, elektron lövhələr, STEAM kabinəsi və digər avadanlıqlar qurulmuşdur. Kollektiv bunlardan istifadə etməklə şagirdləri gələcəyə hərtərəfli hazırlamalıdır.

Ali Məclisin Sədri təhsil ocağının muxtar respublika məktəbləri arasında özünəlayiq yer tutacağına və tam orta məktəbə çevriləcəyinə əminliyini bildirmiş, kollektivə uğurlar arzulamışdır.

Binanın həyətində bufet, fərdi qazanxana, açıq idman qurğuları qoyulmuş, abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.

## Dövlət qurumları müasir kənd mərkəzində fəaliyyət göstərəcək






Oktyabrın 1-də Araz kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, ikimərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv və 38 yerlik zal yerləşir. Kitabxana fondunda 3000 kitab vardır. Rabitə evində yeni nəsil ATS quraşdırılmışdır. Kənddə 20 internet istifadəçisi vardır.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 37 üzvü vardır ki, onlardan da 16-sı gənc, 16-sı isə qadındır. Ərazi ilk təşkilatının sədri Musa Əliyev yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: "Bu gün Araz kəndi bayram əhvali-ruhiyyəsindədir. Kənddə həyata keçirilən geniş quruculuq işləri sakinlər tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Kəndimiz abad və müasir kəndlər sırasına qoşulmuşdur. Ali Məclis Sədrinin qayğısı ilə bütün sahələr üzrə yaradılan nümunəvi şərait insanların rifahına və rahat yaşamasına xidmət edir. Quruculuq işlərindən Yeni Azərbaycan Partiyası Araz kənd ərazi ilk təşkilatına da pay düşmüş, müasir iş şəraiti yaradılmışdır. Söz veririk ki, göstərilən qayğıya cavab olaraq öz işimizi layiqincə yerinə yetirəcək, bundan sonra da muxtar respublikanın inkişafında partiya üzvləri fəallıq göstərəcəklər".



İnzibati ərazi dairəsi üzrə nümayəndə Nəriman Hüseynov demişdir: "Kənd sakinləri, əsasən, əkinçilik, heyvandarlıq və maldarlıqla məşğul olur. Yaradılan şəraitin nəticəsidir ki, təsərrüfatlarda istehsal olunan məhsulların bazarlarda satışı həyata keçirilir, təsərrüfat sahibləri ailə büdcələrini artırır. Bu gün bizə şəhərdən geri qalmayan kənd hədiyyə edilmişdir. Biz də yaradılanlardan səmərəli istifadə edəcək, qurulanları qoruyub saxlayacağıq".

Bildirilmişdir ki, kənddə əsas diqqət yetirilən sahələrdən biri də baytarlıq işinin təşkilidir. Bu gün Babək rayonunda epizootik vəziyyət sabitdir. Bunun səbəbi dərman preparatları və digər tibbi avadanlıqlarla təminat, peyvəndləmə və dezinfeksiya tədbirlərinin vaxtında görülməsidir. Aparılan profilaktik tədbirlərin nəticəsidir ki, rayonda bu sahədə heç bir xəstəlik müşahidə olunmur.

Ali Məclisin Sədri baytarlıq işinin əhəmiyyətini vurğulayaraq muxtar respublikada özəl baytarlıq məntəqələrinin yaradılması ilə əlaqədar tapşırığın verildiyini bildirmiş, kadr təminatına diqqəti çəkmiş, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının və digər maarifləndirmə tədbirlərinin iclas zalında keçirilməsi barədə tapşırıqlar vermişdir.

Kəndlərdə müasir səhiyyə müəssisələrinin tikilməsi mühüm əhəmiyyətə malikdir. Kənd mərkəzinin birinci mərtəbəsində yerləşən feldşer-mama məntəqəsində məntəqə müdiri, mama və manipulyasiya otaqları vardır. Məntəqə ginekoloji müayinə masası və alət dəsti, təcili yardım çantası, qlükometr, boyölçən, tərəzi, soyuducu və digər tibbi ləvazimatlarla təchiz edilmişdir.

Məntəqə müdiri Şərəbanu Hüseynova yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: "Əvvəllər məktəbin tərkibində ayrılmış bir otaqda fəaliyyət göstərirdik. İndi bizim üçün müasir iş şəraiti yaradılmış, feldşer-mama məntəqəsi zəruri tibbi avadanlıqlarla təmin olunmuşdur. Bu qayğıya cavab olaraq bundan sonra da daim əhalinin sağlamlığının keşiyində duracağıq".

Ali Məclisin Sədri peyvənd və patronaj işinin təşkili, eləcə də səhiyyə maarifinə üstünlük verilməsi barədə tapşırıqlar vermişdir.

Binada fərdi istilik sistemi quraşdırılmış, həyətdə abadlıq işləri aparılmışdır.

*Ardı 3-cü səhifədə*

## Yeni xidmət mərkəzi ailə təsərrüfatları üçün yeni imkanlar açır

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Araz kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, mağaza və anbar yerləşir. Burada xidmətin təşkili üçün nümunəvi şərait yaradılmış, 2 nəfər işlə təmin olunmuşdur.

Mərkəzdə ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışına üstünlük verilir.






## Araz kəndində içməli su və kanalizasiya şəbəkəsi qurulub

Yaşayış məntəqələrində içməli su və kanalizasiya şəbəkələrinin istifadəyə verilməsi insanların rahatlığına xidmət edən mühüm sosial tədbirdir. Muxtar respublikada bu sahədə kompleks işlər həyata keçirilir, əhali ekoloji təmiz və dayanıqlı içməli su ilə təmin olunur. Şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə də yeni içməli su və kanalizasiya şəbəkələri qurulur.

Oktyabrın 1-də Araz kəndində içməli su və kanalizasiya şəbəkəsinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, Babək rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi əsasında Araz kəndinə içməli su Nehrəm qəsəbəsinə çəkilmiş ana xətdən götürülərək verilir. Kənddə 14,3 kilometr içməli su xətti çəkilmiş, 53 ev birləşməsi aparılmış, sayğac quraşdırılmış, su şəbəkəsi üzərində 2 yanğın hidrantı, müxtəlif diametrli 22 siyirtmə və 2 suboşaldıcı qoyulmuşdur. Araz kəndində 8,8 kilometr daxili kanalizasiya şəbəkəsi çəkilmiş, 53 ev birləşməsi aparılmış, şəbəkə Babək şəhər kanalizasiya xəttinə qoşulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Araz kənd içməli su şəbəkəsinin açılışını bildirən qurğunu işə salmışdır.

## Yeni yolların salınması rahatlığa xidmət edir



Yol infrastrukturunun təkmilləşdirilməsi və modernləşdirilməsi muxtar respublikada əsas diqqət yetirilən sahələrdəndir. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində Araz kənd avtomobil yolu yenidən qurulmuşdur.

Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda yaradılan şəraitlə maraqlanmışdır.



Bildirilmişdir ki, ümumi uzunluğu 8,7 kilometr olan yola asfalt örtük salınmış, 600 metr yol hamarlanaraq qum-çınqıl qatı verilmiş, 38 metal boru su keçidi qoyulmuş, 370 metr beton su kanalı çəkilmişdir.

Sonra sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Bu gün şəhərtipli kənd qurularaq sakinlərin istifadəsinə verilir. Kəndə 9 kilometrə yaxın yol salınmış, bütün evləri əhatə edən su-kanalizasiya şəbəkəsi qurulmuş, kənd və xidmət mərkəzləri, məktəb, poçt, rabitə, internet xidmətləri müasir tələblər səviyyəsində qurularaq istifadəyə verilmişdir. Görülən işlər insanların rahat yaşamasına və kəndin inkişafına xidmət edir. Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan "Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2003-cü il 1 mart tarixli Qanunu ilə Araz kəndi Nehrəm kənd inzibati ərazi dairəsinin tərkibindən ayrılaraq Araz kənd inzibati ərazi dairəsi yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il iyunun 29-da imzaladığı digər Qanunla isə Araz kənd bələdiyyəsi yaradılmışdır. Ötən dövrdə kəndin inkişafı təmin edilmiş, məskunlaşma artmış, yeni evlər tikilmişdir. Bu gün qurulanlar, istifadəyə verilənlər də kəndin bundan sonrakı inkişafını, rahat yaşayışı təmin edəcəkdir.

"Qurulanlar işin bir tərəfidirsə, bunlardan səmərəli istifadə etmək isə əsas məsələdir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, sakinlər kəndin inkişafını təmin etməli, məskunlaşma daha da artmalı, torpaqlardan səmərəli istifadə olunmalı, yaşıllıqlar salınmalı, ailə təsərrüfatları inkişaf etdirilməli, bir sözlə, yaradılan şərait kəndin bundan sonrakı inkişafını sürətləndirməlidir. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bu gün Araz kəndinin timsalında görünür. Həyata keçirilən işlər ölkəmizdəki inkişaf, sabitlik, dövlət-xalq birliyi və ulu öndər Heydər Əliyev siyasətinin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində mümkün olmuşdur. Bu gün Azərbaycan aparılan uğurlu siyasət nəticəsində dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur.



Ali Məclisin Sədri aparılan kompleks quruculuq işləri münasibətilə sakinləri təbrik etmişdir.



Araz kənd sakinləri adından minnətdarlıq edən Əqil Sadiqov demişdir: "Kənddə fəaliyyət göstərən dövlət orqanları əvvəllər şəraiti olmayan, uyğunlaşdırılmış binada əhaliyə xidmət göstərirdilər. Ali Məclis Sədrinin qayğısı ilə kəndimizdə böyük quruculuq işləri görülmüşdür. Bu gün müasir məktəb binası, kənd və xidmət mərkəzləri, həmçinin içməli su və kanalizasiya şəbəkəsi qurularıq kənd sakinlərinin istifadəsinə verilmişdir. Evlərimizə təmiz içməli su xətti çəkilmiş, kanalizasiya sistemləri qurulmuşdur. Hər cür şəraiti olan kənd mərkəzində dövlət qurumları əhaliyə yüksək səviyyədə xidmət edəcəklər. Məktəbdə tədrisin günün tələbləri səviyyəsində qurulması üçün hərtərəfli şərait yaradılmışdır. Vaxtilə kənddə əhali ehtiyaclarını ödəmək üçün qonşu kəndlərə, ya da Naxçıvan şəhərinə üz tuturdu. İstifadəmizə verilən xidmət mərkəzi həm sakinlərin zəruri ehtiyaclarının ödənilməsinə köməklik edəcək, həm də vaxt itkisinin qarşısını alacaq. Yollarımız asfaltlanmış, kənddə müasirtipli ATS quraşdırılmış, əhali fasiləsiz elektrik enerjisi, təbii qaz və internetlə təmin olunmuşdur. Görülən işlər sakinlərin rahatlığına və yaxşı yaşamasına xidmət edir".

* * *

Araz kəndində yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə 2150 metr yeni fiberoptik kabel, 2610 metr rabitə xətti çəkilmişdir. Həmçinin elektrik təsərrüfatı tamamilə yenilənmiş, 71 yeni dirək basdırılmış, müxtəlif diametrli 4515 metr kabel xətti, 6710 metr məftil naqillər çəkilmiş, 2 transformator yarımstansiyası təmir olunmuşdur. Bundan başqa, 173 poqonometr polietilen borularla yeni tikililərə qaz xətti çəkilmiş, 1135 poqonometr qaz xəttində dəmir borularla təmir-bərpa işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Türkiyənin Qars şəhərində Qars müqaviləsinin 100 illik yubileyi qeyd edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 8 fevral tarixdə imzaladığı "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Sərəncama əsasən Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə Türkiyənin Qars şəhərində "Qars müqaviləsinin tarixi əhəmiyyəti" adlı beynəlxalq konfrans keçirilib. İki gün davam edən konfransın iştirakçıları ilk olaraq ümummilli lider Heydər Əliyevin büstünü və Kazım Qarabəkir Paşanın heykəlini ziyarət ediblər. "Aynalı köşk"də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən hazırlanmış nəşrlərin də yer aldığı sərgiyə baxış olub.

Konfransda ilk olaraq şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan və Türkiyə Respublikasının Dövlət himnləri səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfransdakı giriş nitqində Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəd kimi Qars müqaviləsinin iki qardaş ölkə üçün tarixi dəyərə malik olduğunu qeyd edib. Rektor Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 8 fevral tarixdə imzaladığı "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Sərəncamın, eləcə də konfransın əhəmiyyətindən danışıb.



Diqqətə çatdırılıb ki, 1921-ci il oktyabr ayının 13-də imzalanan müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın statusu ilə bağlıdır. Rektor ulu öndər Heydər Əliyevin irəli sürdüyü qardaşlıq əlaqələrinin bu gün də ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirildiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu Nuru Quliyev Qars müqaviləsinin tarixi əhəmiyyətindən danışıb, II Qarabağ müharibəsində qazanılan Tarixi Qələbəni, bütövlükdə, türk xalqının şanlı qələbəsi kimi təhlil edib. İki qardaş ölkə liderlərinin 2021-ci il 15 iyun tarixdə imzaladığı, tarixi Qars müqaviləsinin davamı kimi Şuşa Bəyannaməsinin Azərbaycanın ərazi bütövlüyünün qarantı kimi çıxış edəcəyinə, bu tarixi sənədin ölkəmizin regional və beynəlxalq rolunun və çəkisinin daha da artırılmasında mühüm əhəmiyyət daşıyacağına əminlik ifadə olunub.

Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu tədbir iştirakçılarını Qars müqaviləsinin 100 illik yubileyi və dost ölkənin qazandığı zəfərin bir illiyi münasibətilə təbrik edib, hər iki qardaş ölkə universitetləri arasında beynəlxalq əlaqələrin mövcudluğundan danışıb.

Qars valisi Türkər Öksüz bir əsr bundan öncə olduğu kimi, bu gün də Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyədə inkişafının, ümumilikdə, regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verəcəyini vurğulayıb. Qars valisi Vətən müharibəsində Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyini xüsusi olaraq qeyd edib.

Çıxışlardan sonra Naxçıvan Dövlət Universiteti adından xatirə plaket təqdim edilib. Konfrans iki bölmədə davam edib, bölmə iclaslarındakı məruzələrdə bu müqavilənin tarixi dəyəri, müasir mediada yeri və Naxçıvanın muxtariyyət statusundakı mühüm əhəmiyyətindən bəhs olunub. Konfransda Naxçıvan Dövlət Universitetinin dosentləri, Türkiyə Cümhuriyyəti Milli Müdafiə Universitetinin, Ərzincan Atatürk və Qars Qafqaz universitetlərinin professorları müxtəlif mövzularda məruzələr ediblər.

Qars müqaviləsinin 100 illik yubiley tədbirləri çərçivəsində Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti görüşlər keçirib, Türkiyədə ulu öndərin həyat və fəaliyyətinin əks olunduğu Heydər Əliyev mərkəzini ziyarət edib. Qars Qafqaz Universitetindəki Azərbaycan dili və ədəbiyyatı fənninin tədris edildiyi mərkəzin fəaliyyəti ilə tanışlıq zamanı Naxçıvan Dövlət Universiteti adından mərkəzə kitablar hədiyyə edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Qarabağa Böyük Qayıdışın başlanğıcı Cəbrayıldan qoyulmuşdur



*Ötən il 44 gün ərzində əldə etdiyimiz böyük Qələbə tariximizə qızıl hərflərlə yazıldı. Bir-birinin ardınca doğma torpaqlarımız işğaldan azad edildi. Onların içərisində Cəbrayılın da özünəməxsus yeri vardır.*

### *Qafqaz diyarının qoynunda yerləşən Cəbrayıl rayonu*

Azərbaycan Respublikasının cənubunda, Kiçik Qafqaz dağlarının qoynunda yerləşir Cəbrayıl rayonu... 1930-cu ildə əsası qoyulan bu rayon qədim yurd yeri hesab edilir. Tarixi mənbələrdə bildirilir ki, rayonun adı onun mərkəzi olan Cəbrayıl kəndinin adı ilə bağlıdır. Bu müqəddəs torpağın adının Allahın xeyir mələyi Cəbrayılın adından götürüldüyü də deyilənlər sırasındadır. Qubadlı, Zəngilan, Füzuli ilə həmsərhəd olan rayonun ərazisindən işğaldan əvvəl həm dəmir yolu xətti, həm də avtomobil yolu keçirdi. Bu da bir vaxtlar tranzit rolunu oynayan rayonun inkişafına şərait yaradırdı. 81 mindən çox əhalisi olan Cəbrayıl 92 kənddən, 4 qəsəbədən, 1 şəhərdən – ümumilikdə, 97 yaşayış məntəqəsindən ibarət idi. Kənd təsərrüfatı üçün iqlimi əlverişli olan rayonda əhalinin əsas məşğuliyyəti üzümçülük, heyvandarlıq və digər təsərrüfat sahələri olmuşdur. Bundan əlavə, vaxtilə Cəbrayıl rayonu respublikada üçüncü ən böyük barama istehsalçısı olmaqla yanaşı, burada ipəkçilik, bostan-tərəvəz məhsullarının istehsalı, meyvəçilik də inkişaf etmişdir. Milli-mənəvi dəyərlərimizi özündə qoruyub yaşadan xalçaçılıq sənəti geniş yayılmış, əl əməyi göz nuru olan Qarabağ xalçaları toxunmuşdur. Cəbrayıl rayonunun ərazisində sement, mərmər, mişardaşı və digər qiymətli tikinti materialları, o cümlədən dəmir filizi, neft yataqları olmuş, elm, mədəniyyət və maarif təşəkkül tapmışdır. Rayonun ərazisi maddi və mədəni abidələrlə əhatələnmişdir. Buraya Böyük İpək Yolunun əsas qollarından biri olan iki Xudafərin körpüsü də daxildir. Bu körpülər vaxtilə həm ticarət, həm də hərbi-strateji məqsəd daşıyıb. Bu gün onlar həm də simvolik məna daşıyır. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində yerləşən bu nadir tarixi memarlıq abidəsi iki ölkə arasında Prezidentimizin də vurğuladığı kimi: ***"dostluq körpüsü, dostluq rəmzidir".*** Rayonda müxtəlif türbələr – XIII-XVI əsrlərə aid türbə, Şıxbaba türbəsi (XIV əsr), XVI əsrə aid səkkizguşəli türbə, XVI-XIX əsrləri əhatə edən məscidlər, ilk orta əsrlərə aid Ağoğlan nekropolu, XII əsrə aid Qız qalası, bizim eradan əvvəl I əsrə aid kəhrizlər, eramızdan əvvələ aid kurqanlar, Xanəgah və onlarla başqa tarixi-dini memarlıq nümunələri olmuşdur.

### *Cəbrayılın işğalı*

Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa qarşı iddiaları 1988-ci ildə daha aqressiv məcraya yönəlmiş, 1991-ci ilin sonlarında SSRİ-nin dağılması ilə Ermənistan, faktiki olaraq Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başlamış, torpaqlarımızı işğal etmişdi. Cəbrayıl rayonu 1993-cü il avqust ayının 23-də düşmənin tapdağı altına keçmiş, 1050 kvadratkilometri əhatə edən rayon ərazisi və bu ərazilərdə birlikdə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, 100-ə yaxın kənd, bütünlüklə, erməni işğalına məruz qalmış, vəhşicəsinə dağıdılmışdır. Qarabağ müharibəsində 362 şəhid olmuş, 191 nəfər sağlamlıq imkanlarını itirmiş, 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş, minlərlə adam Cəbrayıldan qaçqın, köçkün düşmüşdür.

### *Cəbrayılın azad edilməsi*

Onu, xüsusilə vurğulamalıyıq ki, 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun əks-hücumu nəticəsində Lələtəpə yüksəkliyi işğaldan azad edilmiş və Cocuq Mərcanlı kəndi Azərbaycan Ordusunun nəzarətinə keçmişdi. Bu, xalqımızın Qarabağa Böyük Qayıdışının başlanğıcı olmuş, Cocuq Mərcanlı kəndinin bərpasından sonra insanların doğma torpaqlarına qayıdışı prosesi dövlətimizə və rəhbərimizə olan inam hissini daha da gücləndirmişdir. Dövlətimizin başçısı 2017-ci il iyunun 14-də Cocuq Mərcanlı kəndinin bərpası çərçivəsində görülən işlərlə tanışlıq zamanı demişdi: ***"Bu gün Lələtəpədə və işğaldan azad edilmiş digər torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaq".*** Həqiqətən də belə oldu...

İllərdir, düşmən tapdağı altında qalan torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Azərbaycan Silahlı Qüvvələri tərəfindən 2020-ci il sentyabrın 27-də qarşı tərəfə cavab olaraq hərbi əməliyyatlar başladıldı. Həmin gündən etibarən Prezident cənab İlham Əliyev tərəfindən kənd və şəhərlərimizin azad edilməsinə dair daim xoş xəbərlər aldıq. Ötən il oktyabrın 4-də Prezident özünün "Twitter" səhifəsində belə bir xəbər paylaşdı: ***"Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad edib. Eşq olsun, Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"*** Həmin gün Cəbrayıl şəhəri ilə yanaşı, rayonun Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal kəndləri də işğaldan azad edilmişdir. Oktyabrın 18-i – Milli Müstəqillik Günündə Xudafərin körpüsü üzərində Azərbaycan Bayrağı qaldırıldı. Cəbrayıl rayonunun ərazisində aparılan hərbi əməliyyatlar nəticəsində, ümumilikdə, 1 şəhər (Cəbrayıl) və 80 kənd erməni əsirliyindən xilas edildi. Cəbrayılın 27 ildən sonra düşmən işğalından azad olunması ilə Azərbaycan-İran sərhədinə dövlət nəzarəti bərpa edildi, üstəlik, Azərbaycan Ordusunun Xocavənd rayonunun cənub kəndləri və strateji Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar keçirməsi üçün geniş imkanlar yarandı. 44 gün ərzindəki azadlıq mücadiləsində Qələbə xəbərləri ilə böyük güc və qüvvət alır, digər tərəfdən torpaqlarımızın azadlığı uğrunda canını və qanını qurban verən şəhidlərimizlə qürur duyurduq.

Noyabrın 10-da imzalanan üçtərəfli bəyanatdan sonra düşmən təslim oldu, qalan digər torpaqlar da bir güllə belə, açılmadan özümüzə qaytarıldı. Azərbaycanın müharibədə qalib gəlməsindən altı gün sonra, noyabrın 16-da Azərbaycan Prezidenti cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva işğaldan azad olunan Cəbrayıl rayonuna gəldi. Ölkə başçısı Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan Bayrağını qaldırdı. Ötən il noyabrın 26-da "Cəbrayılın azad olunmasına görə" medalı təsis edildi. Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak etmiş 12 min 523 hərbi qulluqçu bu medalla təltif edildi.

### *Cəbrayıl bu gün yenidən qurulur*

Cəbrayıl rayonunun girişində ucaldılmış "Cəbrayıla xoş gəlmişsiniz!" lövhəsi tarixi ədalətin bərpasının ifadəsi, həm də Cəbrayılın yenidən qurulmasının nişanəsi kimi bizə çox söz deyir. Düşmənin bir dənə də olsun, salamat bina qoymadığı rayonun böyük baş planı hazırlanır. Burada bütün inzibati və ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq, küçələr, parklar, xiyabanlar salınacaq. Rayonda yol-nəqliyyat və enerji infrastrukturun bərpası, kənd təsərrüfatının dirçəldilməsi ilə bağlı ayrı layihələr isə onu göstərir ki, Cəbrayıl gözəl görkəmə qovuşacaq, Qarabağımızın dilbər guşələrindən biri kimi həmişə öz yerini qoruyub saxlayacaq.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Buraxılış mərasimi olub



Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kurslarını başa çatan gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar. Mərasimdə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Çıxış edənlər gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

General-leytenant Fazil Ağalarov ixtisas hazırlığı kurslarını uğurla başa vurmaları münasibətilə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb və muxtar respublikamızda ordu quruculuğu istiqamətində görülən işlərdən danışıb.

Sonra əsgərlər müxtəlif hərbi ixtisaslar üzrə qazandıqları bilik və bacarıqları nümayiş etdiriblər.

Yolasalma mərasimi şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Kənan CƏLİLOV**

# Ahıllar Günü münasibətilə tədbir

*1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Şahbuz şəhərindəki Ahıllar Evində sakinlər və sosial xidmətə qəbul edilmiş tənha ahıllar ilə görüş keçirilib.*

Tədbirdə çıxış edən Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək muxtar respublikamızda ahıl insanlara göstərilən dövlət qayğısından, onların sağlamlığının qorunması, yaşayış şəraitlərinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıblar.

Tədbir bədii hissə ilə davam edib, ahıllara hədiyyələr təqdim olunub. Ahıl sakinlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Ustad dərsləri keçilir

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə növbəti ustad dərsləri təşkil olunub.

Bir həftə davam edəcək dərslərdə muxtar respublikanın bütün zəka sahibləri iştirak edəcəklər. Dərslər Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının dəvəti ilə diyarımıza gələn beynəlxalq qrossmeyster Eltac Səfərli tərəfindən gün ərzində 3 dəfə keçiləcək. Belə ki, öncə federasiyanın titullu məşqçi-müəllimləri dərslərdə iştirak edəcək. Günün ikinci yarısında federasiyanın reytinqli zəka sahibləri ustad dərslərində bilik və bacarıqlarını artıracaq, sonda isə federasiya üzvləri dərslərə qatılacaq. Dərslərdə şahmatçıları və müəllimləri maraqlandıran suallar cavablandırılacaq, eyni zamanda çətin məsələlərə aydınlıq gətiriləcək. Həmçinin yuxarı reytinqli şahmatçılara hazırlıq üçün müəyyən edilmiş məsələlər təqdim olunacaq və həll ediləcək.

**✍ Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonunun Ələkli kənd sakini Abdullayev Ramiz Məmməd oğlunun adına olan JN-70$^{B}$ inventar nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 812